# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 22-də Siyəzən şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə müvafiq qurumlara müraciət etmələri tövsiyə olunub.

# Azərbaycanda tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi baza formalaşdırılıb



Azərbaycan hökuməti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşır. Tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi baza formalaşdırılıb. Azərbaycanda qeyri-müsəlman dini icmalarına, müxtəlif dini konfessiya nümayəndələrinə daim diqqət və qayğı ilə yanaşılır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə yanvarın 22-də "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda keçirilən regional konfransda bildirilib.

Siyəzən rayon Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə DQİDK və rayon icra hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.



Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov bu cür maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək qiymətləndirərək, İslam dəyərlərinin düzgün təbliğ olunması istiqamətində rayonda həyata keçirilən işlərin nəticələrindən bəhs edib. Bildirib ki, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində və özünüdərkində mühüm əhəmiyyət daşıyır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışı zamanı ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi istiqamətində qarşıda duran vəzifələrdən, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinin vacibliyindən danışıb.

Komitə sədri Ümummilli lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətlərindən bəhs edib. Vurğulayıb ki, Ulu öndər zəngin irsimizi, mədəniyyətimizi və adət-ənənələrimizi yaşatmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Ümummilli liderin siyasətinin davamı olaraq bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasını, təbliğ və təşviqini daim diqqət mərkəzində saxlayır.

Mübariz Qurbanlı dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən də danışıb. Qeyd edib ki, dini siyasiləşdirmək, ondan sui-istifadə etmək istəyənlərə, din adı altında ictimai-siyasi sabitliyi pozmağa çalışanlara, gəncləri dini radikal qruplara cəlb etməyə cəhd göstərənlərə aramızda yer olmamalıdır. Bütün cəmiyyət bu cür hallara qarşı həm ideoloji, həm siyasi, həm də hüquqi baxımdan mübarizə aparmalıdır.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Cavanşir Əfəndiyev çıxışında bölgələrdə cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz barədə doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Konfrans işini yanvarın 23-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# 20 Yanvar faciəsinin qurbanları Rumıniyada da anılıb

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Azərbaycanın Rumıniyadakı səfirliyində anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfov 20 Yanvar tarixinin Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi olduğunu qeyd edib, milli azadlıq yolunda şəhid olan qəhrəmanların xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağına əmin olduğunu diqqətə çatdırıb.



Tədbirdə 1990-cı il 20 Yanvar tarixində sovet silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi və öz qəddarlığı ilə seçilən təcavüzdən söhbət açılıb, konstitusiya hüquqlarının bərqərar edilməsini tələb edən, azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparan silahsız vətən övladlarının, mülki əhalinin vəhşicəsinə qətlə yetirilməsindən bəhs edilib. Faciə zamanı 147 nəfərin qətlə yetirildiyi və 744 nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri aldığı bildirilib.

Diplomat bildirib ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1990-cı ilin 21 yanvar tarixində Azərbaycanın Moskva şəhərindəki nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış edib, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırıb. Səfir bu hadisələrə ilk dəfə siyasi-hüquqi qiymətin də məhz Ulu öndər tərəfindən verildiyini bildirib.

Sonra 20 Yanvar faciəsinə dair filmlər nümayiş olunub.

Tədbirdə rumıniyalı ziyalılar, tələbələr, KİV təmsilçiləri, "SOCAR Petroleum SA" şirkətinin nümayəndələri, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, Rumıniya-Azərbaycan İkitərəfli Sənaye və Ticarət Palatasının, Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyasının İdarə Heyətinin üzvləri, Rumıniyada yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Tədbir iştirakçıları daha sonra səfirlikdə təşkil edilmiş Qanlı Yanvar faciəsini özündə əks etdirən kitab və fotosərgi ilə tanış olublar.

Eyni zamanda, səfirliyin təşəbbüsü ilə Rumıniyanın milli xəbər agentliyi olan "Agerpres"in internet səhifəsində 20 Yanvar faciəsinə həsr olunmuş məqalə dərc olunub.

# Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib



Yanvarın 22-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova əvvəlcə 2018-ci il payız sessiyasının yekunlarından danışıb. Bildirib ki, hesabat dövründə komitənin 6 iclası keçirilib, 7 məsələ və o cümlədən 3 qanun layihəsi müzakirə olunub. Müzakirəyə çıxarılan hər bir qanun layihəsi Milli Məclisdə qəbul olunub.

Deputatlar komitənin payız sessiyasına dair hesabatını məqbul sayıblar.

İclasda, həmçinin 2019-cu ilin yaz sessiyası üçün komitənin iş planı müzakirə olunub. Müzakirələrdə çıxış edən komitə üzvləri 2019-cu ilin yaz sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə fikirlərini bildirib, bir sıra təkliflər səsləndiriblər.

Sonra komitənin iş planı təsdiqlənib.

Daha sonra gündəlikdəki digər məsələlərə baxılıb.

İclasda "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Qanunun mövcud redaksiyasına əsasən, fərdi identifikasiya kartı vətəndaşın valideyninin, vətəndaşı övladlığa götürənin, vətəndaşın qəyyumunun və ya himayəçisinin, bir sözlə, qanuni nümayəndəsinin müraciəti əsasında verilir. Vətəndaşın qanuni nümayəndələrinin müəyyən səbəblərə görə fərdi identifikasiya kartının alınması üçün müraciət etmək imkanının olmadığı hallarda digər şəxslərin fərdi identifikasiya kartının alınması üçün müraciətləri ilə bağlı münasibətləri dəqiq tənzimləmək məqsədilə qanuna bəzi dəyişikliklər təklif olunur. Belə ki, vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin də fərdi identifikasiya kartının alınması üçün müraciət etmək hüququ təmin olunacaq.

Qeyd edilib ki, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna təklif olunan dəyişiklik bu sənədin "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Qanuna uyğunlaşdırmaq məqsədilə hazırlanıb. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Qanunun 1.1-ci maddəsinə əsasən, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı Azərbaycan Respublikasının ərazisində onun şəxsiyyətini təsdiq edən sənəddir. Buna uyğun olaraq "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 6-cı maddəsinə Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlərin siyahısına Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və pasportu ilə yanaşı, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının əlavə olunması təklif olunur.

Sonra Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Bildirilib ki, təklif olunan dəyişiklik doğumun qeydə alınmasının notariat qaydada müəyyənləşdirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi məqsədi daşıyır.

Bu Məcəlləyə təklif edilən digər dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün milli Fəaliyyət Planı"nın 1.4-cü bəndinin icrası ilə bağlı elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi məqsədi daşıyır.

Müzakirə edilən bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# YAP Səbail rayon təşkilatının 2019-cu il üçün iş planı təsdiqlənib



Yanvarın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının İdarə Heyətinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda YAP Səbail rayon təşkilatının 2019-cu il üçün iş planı və gündəlikdə duran cari məsələlər müzakirə edilib.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev iclasda çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən qətiyyətli dövlət siyasəti nəticəsində əldə olunan uğurlardan danışıb. Qeyd edib ki, bu nailiyyətlər təşkilatın üzvlərini 2019-cu ildə də səmərəli fəaliyyət göstərməyə ruhlandırır.

2019-cu ildə ölkəmizin, o cümlədən YAP-ın həyatı üçün mühüm tədbirlərlə zəngin olacağını vurğulayan Ş.Hacıyev qeyd edib ki, partiyanın qurucusu, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi, bələdiyyə seçkiləri, "Nəsimi ili" çərçivəsində böyük Azərbaycan şairinin həyat və yaradıcılığına həsr olunan silsilə tədbirlər hər bir üzvdən yüksək fəallıq tələb edir. Bu istiqamətdə səmərəli fəaliyyət göstərmək üçün YAP Səbail rayon təşkilatının 2019-cu il üçün iş planı yüksək dəqiqliklə hazırlanıb. Partiyanın, o cümlədən təşkilatın hər bir üzvü bütün bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirməlidir.

İclasda YAP Səbail rayon təşkilatının, onun Qadınlar Şurasının, Gənclər Birliyinin və nəzarət-təftiş komissiyasının illik iş planları müzakirə olunub, rəy və təkliflər dinlənilib.

İdarə Heyətinin üzvləri çıxışlarında iş planlarının geniş, əhatəli və yüksək dəqiqliklə hazırlandığını bildiriblər.

Çıxışlardan sonra iş planları səsə qoyularaq təsdiqlənib.

İclasda, həmçinin yeni təsis edilən ərazi ilk partiya təşkilatlarından daxil olan müraciətlərə baxılıb, "Nərgiz Mall" Ticarət Mərkəzi "Fəvvarələr" ərazi ilk partiya təşkilatının müraciətinə baxılaraq qeydiyyata alınması barədə qərar qəbul olunub.

Sonra cari məsələlər və qarşıda duran vəzifələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

# Professor Akkan Suver: Qorbaçovun 20 Yanvar faciəsi barədə etirafı heç nəyi dəyişmir

Türkiyənin çoxtirajlı "Gözləm" qəzeti Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin 20 Yanvar faciəsi ilə bağlı məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, keçmiş SSRİ-nin sonuncu rəhbəri Mixail Qorbaçovun "Bakıda fövqəladə vəziyyət elan etmək və şəhərə qoşun yeritmək siyasi həyatımın ən böyük səhvidir" fikrini oxuculara xatırladan müəllif yazır ki, bu adi etiraf heç nəyi dəyişmir. Çünki bu düşmənçilik Azərbaycan torpaqlarının 20 faizinin işğalı ilə nəticələnib.

Təcavüzkar Ermənistan ordusunun Azərbaycanın işğal altında olan torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə bağlı dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının qəbul etdiyi qərar və qətnamələrin qəbul edildiyini diqqətə çatdıran müəllif bildirir ki, ağır nəticələrlə başa çatan faciələr və işğal faktının aradan qaldırılması təkcə Azərbaycana və türk dünyasına yox, bütün sülhsevər bəşəriyyətə hörmətsizlikdir.

